*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*

**İlham ƏLİYEV**

# ƏSGƏR

№ 24 (614)

30 dekabr 2021-ci il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

**Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti**

# Yubileyin Şuşa zirvəsi

## İlham Əliyev doğum gününü Cıdır düzündə, Hadrutda qeyd edərək düşmənə bir daha gözdağı verdi

**"Azərbaycan" qəzetinin müxbiri Rəşad Baxşəliyevin müəllifi olduğu "Yubileyin Şuşa zirvəsi" başlıqlı məqalənin ictimai aktuallığını nəzərə alaraq, oxucularımıza təqdim edirik.**

Göründüyü kimi, o tarixdən düz 10 il keçir. Ötən müddətdə çox şey dəyişib. Azərbaycanın da, İlham Əliyevin də, hər zaman görüşdüyü məcburi köçkünlərin də statusu dəyişib. İndi İlham Əliyev ərazi bütövlüyünü bərpa etmiş qalib ölkənin Prezidentidir, onunla görüşən Laçın sakinləri isə məcburi köçkün deyillər.

### Komando Briqadasından revanşistlərə sərt xəbərdarlıq

Dekabrın 24-də Müzəffər Ali Baş Komandan İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və oğulları Heydər Əliyev Xocavənd rayonunun Hadrut qəsəbəsinə səfər edib, orada yaradılan Komando Briqadasının açılışında iştirak ediblər.

Hərbçilər qarşısında çıxış edən İlham Əliyev yaratdığı qüdrətli, müzəffər ordunun gücündən və Vətən müharibəsində ortaya qoyulan qətiyyətdən söz açaraq bildirib ki, Azərbaycan get-gedə daha da güclənir və bu proses davam etdikcə Silahlı Qüvvələrimiz də modernləşir. Yeni açılan hərbi hissə isə torpaqlarımızın müdafiə və mühafizəsində çox mühüm tapşırıqları yerinə yetirəcək.

Qalib komandan hər zamankı kimi bir daha işğalçı Ermənistana mesajlar ünvanlayıb və bu dəfə sərt xəbərdarlıq edib:

"44 günlük İkinci Qarabağ müharibəsi Ermənistan ordusunun tamamilə darmadağın edilməsinə gətirib çıxardı. Bu gün Ermənistan ordusu yoxdur. Əgər Ermənistan yenidən bizim üçün təhlükə mənbəyi olmağa cəhd edərsə, onların axırı İkinci Qarabağ müharibəsindəki kimi olacaqdır. Biz heç vaxt imkan verə bilmərik ki, xalqımıza, dövlətimizə, ərazi bütövlüyümüzə hər hansı bir təhdid yaradılsın. Ölkə hüdudlarından kənarda olsa da, əgər bu təhdidi biz görsək, heç kim bizi dayandıra bilməz. Necə ki, 44 gün ərzində nə qədər bizi dayandırmağa çalışdılar, nə qədər bizi hədələdilər, təzyiq etdilər, təhdid etdilər, heç kim bizi dayandıra bilmədi".

Qalib Komandan bir daha müharibənin



gedişatını xatırladaraq bildirdi ki, 44 gün ərzində heç bir qüvvə Azərbaycana təsir edə bilmədi, qarşıya qoyulan məqsədlərə nail olundu. Amma bu gün Ermənistanda bəzi qüvvələr revanş haqqında düşünürlər. İlham Əliyev həmin qüvvələrə sözünü çatdırdı: "İndi də Ermənistanda əgər kimsə revanş haqqında düşünürsə, əgər kimsə düşünür ki, bir neçə ildən sonra vəziyyət dəyişəcək, nəsə baş verəcək və yenidən onların hərbi imkanı yaranacaq və onlar yenidən bizə ərazi iddiası ilə çıxış edəcəklər, bəri başdan bilsinlər, biz heç nəyi gözləməyəcəyik, heç kim bizi dayandıra bilməz, heç nəyə baxmadan lazımi addımları atacağıq. Bunu etmək üçün siyasi iradəmiz də var, gücümüz də var. Bütün dünya gördü ki, Azərbaycanın qəhrəman övladları nəyə qadirdir".

Prezident, həmçinin, yeni yaradılan Komando Briqadası haqqında da fikirlərini bölüşərək bildirdi ki, müharibədən sonra həm müasir tələblərə cavab verən silah-sursat, texnikalar alınır, eyni zamanda yeni silahlı birləşmələr yaradılır. Hadrutda bu hərbi hissədə isə yeni hərbi birləşmənin nümayəndələri, komando qüvvələri yerləşəcək: "Komando Briqadasının yaradılması bizim üçün yenilikdir. Bir yox, iki yox, bir çox Komando briqadaları artıq Azərbaycanda yaradılır və bu briqadalar istənilən hərbi vəzifəni icra etməyə qadir olacaqlar. Yüksək təlim keçmiş, yüksək iradə nümayiş etdirmiş və Vətən uğrunda özlərini fəda etməyə hazır olan övladlarımız bu briqadalarda xidmət edəcəklər. Bu, bizim ordumuzun gücünü böyük dərəcədə artıracaq. Bir daha demək istəyirəm ki, belə briqadalar çox olacaq, minlərlə hərbçimiz bu briqadalarda xidmət edəcəklər. Beləliklə, Azərbaycan Ordusu bundan sonra da öz peşəkarlığını və yüksək mənəvi ruhunu qoruyacaq".

### Qarabağ və Zəngəzurun yüksəlişi

İşğaldan azad edildikdən sonra 7-ci dəfə Şuşaya səfər edən Prezident Cıdır düzündə ürək sözlərini söylədi və bir daha bəyan etdi ki, xalqın mütləq əksəriyyətindən aldığı etimad mandatı 2003-cü ildən bəri ona güc verir, iradəsini daha da möhkəmləndirir.

Məhz bu dəstək nəticəsində xalq Prezidentinin ətrafında "dəmir yumruq" kimi birləşərək böyük tarixi uğurlara imza atıb. İlham Əliyev bir daha həqiqətləri açıqladı: "Bu gün biz azad Qarabağdayıq. Bu gün biz azad Zəngəzurdayıq. Biz - bu torpaqların sahibləri bu torpaqlara qayıtmışıq və bundan sonra biz bu torpaqlarda əbədi yaşayacağıq. Azərbaycan xalqının mənim sözlərimə inamı məni daha da çox inandırırdı ki, biz buna nail olacağıq. Xalqımız birləşdi, bir amal uğrunda, bir müqəddəs ideya uğrunda birləşdi və istədiyinə nail oldu".

Qalib Komandanın Şuşaya növbəti səfəri, həyata keçirilən tikinti-quruculuq işləri ilə tanışlıq, həqiqətən də, düşmənə bir daha gözdağı verdi. Hadrutda Komando Briqadasının açılması isə Ermənistana xəbərdarlıq olmaqla yanaşı, onun havadarlarına da subliminal mesaj idi ki, Azərbaycan xalqı öz torpaqlarına sahib çıxıb və bundan sonra Qarabağı cənnətməkana çevirib əsrlər boyu əbədi olaraq burada yaşayacaq.

İlham Əliyevin Qarabağa növbəti səfəri tarixə yazıldı. Baş Sərkərdə ənənəsinə və verdiyi sözə sadiqliyini bir daha göstərdi. Ailə üzvləri ilə birlikdə Şuşaya gələn Prezidentin səmimi fikirləri, səsləndirdiyi xoş sözlər Azərbaycanı dünyaya günəş kimi parlayan ölkə kimi görmək istəyən Ulu Öndər Heydər Əliyevin və Şuşanın alınmasında böyük şücaət, rəşadət göstərərək qəhrəmancasına şəhid olan hərbçilərimizin ruhlarını şad etdi.

Sonda isə qətiyyətli, vədinə sadiq lider bir daha ona inanan, güvənən Azərbaycan xalqını əmin etdi ki, bundan sonra da eyni əzmkarlıqla, eyni qətiyyətlə ölkə maraqlarının keşiyində duracaq və heç vaxt indiki qədər güclü olmayan qüdrətli Azərbaycan daha böyük uğurlara, zəfərlərə imza atacaq.

# ETİBARI VƏ İNAMI DOĞRULDACAQLAR...

## *Cari ildə 573 nəfər Vətən müharibəsinin iştirakçısı və şəhid ailələrinin üzvləri polis orqanlarında xidmətə qəbul olunub*



Dekabrın 16-da daxili işlər naziri general-polkovnik Vilayət Eyvazovun iştirakı ilə respublikanın şəhər, rayon polis orqanlarında sıravi və kiçik rəis heyəti vəzifələrində xidmət etmək arzusunda olan gənclərin növbəti sıra baxışı keçirilib.

Sıra baxışında kütləvi informasiya vasitələrində, o cümlədən, Daxili İşlər Nazirliyinin rəsmi saytında və sosial şəbəkələrdəki səhifələrində verilmiş elana uyğun olaraq, nazirliyə onlayn qaydada müraciət etmiş gənclərdən daha hazırlıqlı olan 337 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb ki, onlardan da 90 nəfəri Vətən müharibəsinin iştirakçıları və şəhid ailələrinin üzvləri olub.

Ümumilikdə isə il ərzində daxili işlər orqanlarında xidmətə qəbul edilən gənclərdən 573 nəfəri torpaqlarımızın işğaldan azad edilməsi uğrunda gedən döyüşlərdə iştirak etmiş şəxslər və şəhid ailələrinin üzvləri olub.

Nazir V.Eyvazov xidmətə qəbul ediləcək gəncləri qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə təbrik edərək onlara polis adını və şərəfini daim uca tutmalarını, müasir informasiya texnologiyalarının sirlərinə yiyələnmələrini, vətəndaşların müraciətlərinə həssaslıqla və operativ şəkildə yanaşmalarını, onlarla ünsiyyətdə, rəftarda hər zaman yüksək mədəniyyət və təmkinlik nümayiş etdirmələrini, ədalətli, obyektiv və dürüst olmalarını, fəaliyyətlərində peşəkar həmkarlarının təcrübəsindən yararlanmalarını tövsiyə edib.

**DİN-in Mətbuat xidməti**



2 - 4_Layout 1 29.12.2021 10:27 Page 1



# DAXİLİ İŞLƏR ORQANLARININ VƏ DAXİLİ QOŞUNLARIN ŞƏXSİ HEYƏTİNƏ

*Əziz həmkarlar!*

*Yola saldığımız 2021-ci ildə cinayətkarlığa qarşı mübarizə, qanunçuluğun və hüquq qaydasının təmin edilməsi sahəsində funksiyalar digər dövlət orqanları ilə sıx qarşılıqlı əlaqədə layiqincə həyata keçirilmiş, sabitlik qorunub saxlanılmışdır. Möhkəm nizam-intizama, müasir infrastruktura və maddi-texniki bazaya malik daxili işlər orqanları və Daxili Qoşunlar xidməti tapşırıqların və işğaldan azad edilmiş ərazilərdə mühüm vəzifələrin icrasında vətənpərvərliyi və anda sadiqliyi ilə seçilmiş, bütövlükdə qarşıya qoyulmuş əsas hədəflərə nail olunmuşdur.*

*Ulu Öndərin müəyyənləşdirdiyi daxili və xarici siyasət kursunun Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən müvəffəqiyyətlə davam etdirilməsi, bütün sahələri əhatə edən sistemli islahatlar, xalqla Liderin sarsılmaz birliyi sayəsində əldə olunan bu və digər uğurlar eyni zamanda şəxsi heyətin peşəkarlığının, vətəndaş məmnunluğunun təmin edilməsinə yönəlmiş davamlı səylərinin nəticəsi kimi xüsusi qeyd edilməlidir.*

*Xidmətdə fərqlənənlərin möhtərəm Prezident tərəfindən orden və medallara layiq görülməsi, habelə əməkdaşların və hərbi qulluqçuların sosial müdafiəsinin gücləndirilməsi barədə əhəmiyyətli qərarların qəbul edilməsi Zati-alilərinin şəxsi heyətin əməyinə verdiyi yüksək dəyərin növbəti əyani təsdiqi olmuşdur.*



*Əminəm ki, ictimai asayişin qorunması, insan hüquq və azadlıqlarının müdafiəsi kimi məsul vəzifələri bundan sonra da əzmlə yerinə yetirəcək, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevin ali etimadını doğruldacaqsınız.*

*Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə bütün şəxsi heyəti, hörmətli veteranlarımızı, vəzifə borcunu yerinə yetirərkən şəhid və həlak olmuş əməkdaşların və hərbi qulluqçuların ailə üzvlərini ürəkdən təbrik edir, möhkəm cansağlığı, xoşbəxtlik, ailə səadəti, xidmətdə yeni-yeni nailiyyətlər arzulayıram.*

*Bayramınız mübarək!*

*Vilayət Eyvazov*
*Azərbaycan Respublikasının*
*daxili işlər naziri*
*general-polkovnik*

*30 dekabr 2021-ci il.*

# 31 DEKABR - DÜNYA AZƏRBAYCANLILARININ HƏMRƏYLİYİ GÜNÜ

1991-ci il dekabrın 16-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Heydər Əliyevin sədrliyi ilə keçən iclasında 31 dekabrın dünya azərbaycanlılarının həmrəylik bayramı kimi qeyd olunması barədə qərar qəbul edilib. Ali Məclis bununla bağlı qanunvericilik aktının qəbul olunması üçün ölkə parlamentinə - Ali Sovetə müraciət ünvanlayıb. Dekabrın 25-də Azərbaycan Respublikası Ali Sovetinin Milli Şurası müraciəti nəzərə alaraq, dekabrın 31-nin Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü elan olunması barədə qanun qəbul edib.



2001-ci il noyabrın 9-10-da Bakıda Dünya Azərbaycanlılarının I Qurultayı keçirilib. Qurultay soydaşlarımızın milli mənlik şüurunun güclənməsinə, müxtəlif ölkələrdə azərbaycanlı icmalarının mütəşəkkilliyinin və fəallığının artmasına təsir göstərib. Bu, ölkənin ictimai-siyasi həyatında yeni bir hərəkat, dövlət siyasətinin yeni bir istiqaməti idi. Həmin qurultayda Ulu Öndərin böyük iftixarla söylədiyi “Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!” kəlamı isə dillər əzbərinə çevrilib.

Qurultaydan sonra Ümummilli Lider Heydər Əliyevin 2002-ci il 5 iyul tarixli Fərmanı ilə xaricdəki soydaşlarımızla əlaqələrin genişləndirilməsi və inkişaf etdirilməsi məqsədilə Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin (hazırda Diasporla İş üzrə Dövlət Komitəsi) yaradılması, həmin il dekabrın 27-də isə soydaşlarımızla bağlı dövlət siyasəti haqqında qanunun qəbul edilməsi dünya azərbaycanlılarının milli birliyi və təşkilatlanması prosesini daha da gücləndirib.

Yorulmaz fəaliyyəti ilə Heydər Əliyev siyasi fəlsəfəsinə, onun liderlik məktəbinə söykənən Prezident İlham Əliyev Ulu Öndərin bu sahədəki xidmətlərini uğurla davam etdirir. Dövlətimizin başçısının “Dünya azərbaycanlılarının II Qurultayının keçirilməsi haqqında” 2006-cı il 8 fevral tarixli Sərəncamına uyğun olaraq, həmin il martın 16-da Bakıda keçirilən növbəti mötəbər toplantı xaricdə yaşayan azərbaycanlıların diaspordan lobbiyə çevrilməsi istiqamətində yeni addım olub, ölkəmizlə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması işində əhəmiyyətli rol oynayıb.

2007-ci il martın 9-da Bakıda keçirilən Azərbaycan və Türk diaspor təşkilatları rəhbərlərinin birinci forumu isə bütün türkdilli xalqların həyatında mühüm hadisəyə çevrilib, Azərbaycan Prezidenti İlham Əliyevin Türk dünyasının birliyinə verdiyi əhəmiyyətin parlaq təzahürü kimi tarixə düşüb.

Diasporumuzun təşkilatlanması prosesi bu gün daha sürətlə gedir.

Ötən ilin 27 sentyabr – 9 noyabr tarixlərində 44 gün davam edən Vətən müharibəsində xalqımız Müzəffər Ali Baş Komandanımızın ətrafında yumruq kimi birləşdi, torpaqlarımızın azadlığı uğrunda mübarizədə milli həmrəyliyin ən gözəl nümunəsini yaratdı. Əslində, bu birliyin müəllifi də elə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin özüdür.

Həmrəylik Günü milli birlik, Azərbaycana məhəbbət, milli-mənəvi dəyərlərimizə hörmət, Vətənə bağlılıq hisslərini özündə təcəssüm etdirir.

Dövlətimizin diaspor siyasəti, həmvətənlərimizin birlik və həmrəyliyinin möhkəmləndirilməsi, onların daha mütəşəkkil formada təşkilatlanması prosesi özünün yeni mərhələsinə qədəm qoyub. Artıq dünya azərbaycanlıları yaşadıqları ölkələrin sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında daha fəal rol oynayır, respublikamızla qarşılıqlı əlaqələrin genişlənməsinə böyük töhfə verir, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında, zəngin mədəni irsimizin təbliğində, təcavüzkar erməni dairələrinin ideoloji təxribatlarının qarşısının alınmasında qətiyyət nümayiş etdirirlər. Onlar Azərbaycan dövlətinin dəstəyi sayəsində qardaş və dost xalqların lobbi və diasporları ilə səmərəli əməkdaşlığın qurulması sahəsində təsirli tədbirlər həyata keçirirlər.

**Həmrəylik Gününüz mübarək!**

# NÜMUNƏVİ XİDMƏTİ-DÖYÜŞ FƏALİYYƏTİ İLƏ ÖNDƏ OLAN QABAQCIL BÖLMƏ

Respublika Baş Prokurorluğunun, Daxili İşlər Nazirliyinin, Baş Mütəşəkkil Cinayətkarlığa Qarşı Mübarizə İdarəsinin və Kriminalistika Təhqiqatlar İdarəsinin inzibati binalarının mühafizə və müdafiəsini təmin edən Daxili Qoşunların 16076 saylı hərbi hissəsinin şəxsi heyəti vəzifə borclarından irəli gələn tələblərə uyğun olaraq, qarşıya qoyulmuş tapşırıqları keyfiyyətlə yerinə yetirir. Bu istiqamətdə həyata keçirilən tədbirlər hissə komandanlığı tərəfindən daim diqqətdə saxlanılır.






Hərbi hissə komandiri polkovnik-leytenant Vaqif Umudəliyev əldə olunan müvəffəqiyyətin arxasında yüksək döyüş hazırlığının, mehriban, sağlam kollektivin, möhkəm hərbi intizamın, eyni zamanda məqsədyönlü fəaliyyətin dayandığını bildirdi. Qeyd etdi ki, ötən müddət ərzində Daxili Qoşunların komandanlığı tərəfindən verilən əmr, direktiv və göstərişlərin, habelə təlimatların tələbləri şəxsi heyət tərəfindən dərindən öyrənilib, aidiyyəti üzrə xidmət və bölmələrə müvafiq tapşırıqlar verilib. Verilən hər bir tapşırığın icrası, eləcə də nəticəsi hissə komandanlığı tərəfindən daim ciddi nəzarətdə saxlanılıb.

Onun sözlərinə görə, hərbi qulluqçular funksional vəzifələrinə məsuliyyətlə yanaşaraq, şəxsi nümunə göstərməyi bacarırlar. Diqqət yetirilən əsas məsələlərdən biri də şəxsi heyətdə ruh yüksəkliyinin, mənəvi-psixoloji hazırlığın daha da artırılması olub.



Gündəlik olaraq döyüş xidmətinə cəlb edilən hərbi qulluqçuların peşəkar hazırlığından da söz açan komandir hərbi hissənin nizam-intizamı ilə fərqlənən bölükləri arasında baş leytenant Qurban Qayıbovun komandiri olduğu mühafizə bölüyünün xidmətini xüsusilə vurğuladı.

Adıçəkilən bölüyün komandiri vəzifələrini müvəqqəti icra edən baş leytenant Q.Qayıbovla söhbət aparıb, xidmətə cəlb olunan şəxsi heyətin hazırlanması, onlarda ayıqsayıqlıq kimi keyfiyyətlərin formalaşması üçün görülən işlərlə bağlı məlumat əldə etdim.

Qarovula təyin olunmuş şəxsi heyətin hazırlanmasında, onlarla təlimat məşğələlərinin keçirilməsində yaxından iştirak edən baş leytenant Q.Qayıbov, eyni zamanda, bölükdə daxili qayda-qanuna və intizama riayət edilməsini ciddi nəzarətdə saxlayır.

Xidmətin Azərbaycan Respublikasının Qarnizon və Qarovul Xidmətləri Nizamnaməsinin tələblərinə əsasən təşkil olunduğunu vurğulayan komandir xidmətə nizam-intizamı, təlim-tərbiyəsi ilə fərqlənən, sağlamlıq durumu qənaətbəxş olan hərbi qulluqçuların cəlb olunduqlarını dedi.

Hərbi qulluqçuların istirahət və asudə vaxtları da səmərəli təşkil olunur. Şəxsi heyətin istirahəti üçün lazımi şərait mövcuddur.

Bir sözlə, mühafizə bölüyü hər zaman nümunəvi xidməti və sayıqlığı ilə seçilir, qəflətən qarşıya çıxan tapşırıqların dəqiqliklə yerinə yetirilməsinə hazırdır.

**kapitan Xədicə Hacızadə**

# XÜSUSİ TƏYİNATLILARIN HAZIRLIĞI DİQQƏT MƏRKƏZİNDƏDİR

Dekabr ayının 9-dan 11-dək Daxili Qoşunların 25033 saylı hərbi hissəsinin xüsusi təyinatlı dəstəsinin döyüş hazırlığı və döyüş təliminin vəziyyəti yoxlanılıb. Bu barədə məlumat verən daxili qoşunların baş idarəsinin qərargahında əməliyyat və döyüş hazırlığı idarəsinin döyüş hazırlığı şöbəsində xüsusi təyinatlı bölmələrin hazırlığı üzrə baş zabit polkovnik-leytenant Tural Novruzov bildirdi ki, yoxlama müddətində komandir heyətinin idarəetmə və liderlik qabiliyyəti, şəxsi heyətin atəş, fiziki və xüsusi taktiki hazırlığının səviyyəsi öyrənilib, fövqəladə hallar zamanı fəaliyyət planına uyğun olaraq xüsusi təyinatlı bölməyə həvalə olunan tapşırıqların icrası üzrə qrup, yarımqrup komandirlərinin, eləcə də şəxsi heyətin bilik və bacarığına diqqət yetirilib.






Həmçinin, xüsusi təyinatlı bölmədə idarəetmənin vəziyyəti, döyüş təliminin planlaşdırılması və müvafiq tədris proqramının icrası, şəxsi heyətin xüsusi təlim atış çalışmaları üzrə praktiki atəş qabiliyyəti, fiziki hazırlığı, alpinist hazırlığı, hərbi topoqrafiya, xüsusi taktiki hazırlıq üzrə bilik və bacarığı yoxlanılıb.

Polkovnik-leytenant T.Novruzov onu da vurğuladı ki, xüsusi təyinatlı bölmənin müvafiq həyəcan siqnalı ilə hazırlığı, çevikliyi, silahlanması, təchizatı, avtomobil və zirehli texnikaların hərəkət qabiliyyəti, əməliyyat yerinə marşın icrası, komandir heyətinin qərar qəbuletmə bacarığı qiymətləndirilib. Müəyyən olunub ki, bölmə qarşıda duran tapşırıqların icrasına hazırdır, intizam və daxili qayda qorunub saxlanılır.

Baş zabit məlumat verdi ki, hərbi hissənin xüsusi təyinatlılarından 35 nəfər hərbi qulluqçu zoğalı beret daşıma hüququna malikdir: “Yoxlama müddətində bölmənin şəxsi heyəti ilə “Topoqrafik xəritələr, növləri, istifadəsi və koordinat sistemləri”, “Xüsusi əməliyyatlarda qrupun, yarımqrupun döyüş düzülüşləri” mövzularında məşğələlər keçirilib. Məşğələlər zamanı xüsusi təyinatlı bölmələr üçün nəzərdə tutulmuş normativlərin yerinə yetirilməsi metodikaları da praktiki olaraq şəxsi heyətə izah edilib”.

Son olaraq, polkovnik-leytenant T.Novruzov qeyd etdi ki, dəstənin zabit, gizir və müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları ilə “Dövlətə və dövlətçiliyə sadiqlik, funksional vəzifə borclarının yerinə yetirilməsində hərbi qulluqçuların məsuliyyəti” barədə söhbətlər aparılıb, komandir heyəti ilə yoxlamanın yekunlarına dair xidməti müşavirə keçirilib, aşkar olunmuş nöqsanların aradan qaldırılması üçün konkret tapşırıq və tövsiyələr verilib.

**gizir Ariz Aslanov**

3_Layout 1 29.12.2021 11:54 Page 1



*Şəhidlərimiz*

# CƏSUR VƏ QEYRƏTLİ OĞUL KİMİ XATİRƏLƏRDƏ YAŞAYACAQ...

44 günlük Vətən müharibəsində bizi qalib edən amillər sırasında vətənpərvərlik, fədakarlıq və döyüşkənlik xüsusi yer tutur. Hərbi qulluqçularımızda gördüyümüz bu keyfiyyətlər elə bir soydaşımız yoxdur ki, onu qürurlandırmasın. Döyüşçü fədakarlığının ən uca məqamı şəhidlikdir.

Hərbi zəfərimizə layiqli töhfə verən Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının şəhidlik zirvəsinə ucalan hərbi qulluqçularından biri baş çavuş Məmmədov Şahlar Şahin oğludur. Şahların ömür yoluna nəzər saldıqda maraqlı məqamlar üzə çıxır. Xarakteri, dünyagörüşü etibarilə fədai bir gəncin taleyini araşdırdım. O, 1995-ci il noyabrın 1-də Neftçala rayonunun Ərəbqardaşbəyli kəndində doğulub. Şahin Məmmədov və Əzizə Məmmədova iki övlad böyüdüblər, ailənin sonbeşiyi olan Şahların bir bacısı var. Mehriban və zəhmətkeş ailədə boya-başa çatan Şahların öz həyat məramlarından biri valideynlərinə, nəslinə, el-obasına layiq olmaq idi.

Ə.Məmmədovanın bildirdiyinə görə, Şahlar əvvəlcə doğma kəndində Seymur Süleymanov adına tam orta məktəbdə, 5-ci sinifdən isə Salyan şəhərindəki Aşıq Pənah adına 1 saylı humanitar fənlər təmayüllü məktəb-liseydə oxuyub. Müəllimlərinin və şagird yoldaşlarının hörmətini qazanıb. Təhsilində fəallığı ilə seçilib. Yeniyetmə çağından idmana həvəslə yanaşıb, aykido ilə məşğul olub.

Anası söylədi ki, oğlu dürüst, təmkinli, sakit xarakterli, ədəb-ərkanlı, öz mənliyini qoruyan, sözünü-sirrini, düşündüklərini heç də hər kəslə bölüşməyən, qayğıkeşliyi ilə seçilən, həmişə səliqəli və yerini bilən bir gənc kimi onu tanıyanların yaddaşında qalıb.

Ali məktəbə qəbul olunmaq üçün Şahlar qabiliyyət imtahanından uğurla keçib, digər əsas imtahanda isə həyəcanlanması səbəbindən tələb edilən balı toplaya bilməyib. Buna baxmayaraq, Şahlar Bakı Texniki Kollecinə imtahan verərək qəbul olunub və burada yol hərəkətinin təşkili ixtisası üzrə təhsil almağa başlayıb. Kollecdə öz ixtisası üzrə biliklərə bacarıqla yiyələnib. Ancaq müddətli həqiqi hərbi xidmətə çağırılması ilə əlaqədar olaraq kollecdə təhsilini dayandırıb.

2014-cü ilin yanvar ayından 2015-ci ilin iyul ayınadək Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin mühafizə alayında müddətli həqiqi hərbi xidmətdə olub.

Hərbi xidmətdən qayıtdıqdan sonra Şahlar əsas diqqətini özünə uyğun bir iş tapmağa, ailəyə maddi cəhətdən kömək etməyə yönəldib. Kollecdə orta ixtisas təhsilini isə işləyərək, qiyabi formada davam et-



dirməyi düşünürdü. Lakin həyatındakı müəyyən dəyişikliklər səbəbilə bu niyyəti baş tutmayıb.

Bir il altı ay hərbi xidmətdə olması Şahlarda hərbçi peşəsinin xüsusiyyətləri haqqında müəyyən təsəvvür yaratmışdı. Xüsusi təyinatlıların xidməti barədə məlumatlara daha çox maraq göstərirdi. 2016-cı ilin aprel döyüşləri bu marağını daha da artırmışdı. Yoldaşlarından birinin hərbi xidmətə qəbulla bağlı sənədlər toplamasına köməklik edərkən Daxili Qoşunlarda xidmət barədə təklif alıb. Beləliklə, həmin məqam bununla bağlı qərar qəbul etməsinə təkan verib.

2016-cı ilin aprel ayının 23-də Şahlar Daxili Qoşunların 12318 saylı hərbi hissəsində müddətdən artıq həqiqi hərbi xidmətə başlayaraq, xüsusi təyinatlı dəstənin xüsusi həmlə qrupunda heyət nəfəri vəzifəsinə təyin edilib. Sonra həmin dəstənin atəş təminatı qrupunda tuşlayıcı və xüsusi həmlə qrupunda pulemyotçu vəzifələrində xidmət edərək komandanlığın ona göstərdiyi etimadı doğruldub. Funksional vəzifələrini məsuliyyətlə yerinə yetirərək, təlimlərdə öz döyüş hazırlığını daim təkmilləşdirib. Təhkim olunmuş silah və xüsusi vasitələrdən məharətlə istifadə etməyi bacarıb. Hərbi xidməti dövründə xüsusi təyinatlı kimi özünü döyüş tapşırıqlarının icrasına hazırlayıb.

2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsində xalqımız Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin ətrafında sıx birləşdi, ölkəmizin müdafiəsinə səfərbər olundu, ordumuzun mənəvi dayağı missiyasını üzərinə götürdü. Ayrı-ayrı qoşun növlərinə məxsus hərbi hissələrin şəxsi heyəti, o cümlədən, xüsusi təyinatlı bölmələr düşmənə qarşı rəşadətlə vuruşdular, yüksək döyüş qabiliyyəti nümayiş etdirdilər.

Daxili Qoşunların xüsusi təyinatlılarının qarşısında qoyulan müxtəlif döyüş tapşırıqlarını onlar ləyaqətlə yerinə yetiriblər. 12318 saylı hərbi hissədə xüsusi təyinatlı dəstənin şəxsi heyəti müharibə başladıqda həyəcan siqnalı ilə qaldırılaraq 16077 saylı hərbi hissədə yerləşdirilib. Burada bir müddət ehtiyat qüvvə qismində qalıblar, döyüş əməliyyatlarına hazırlıq görülüb. Bütün silahdaşları kimi Şahlar da həmin vaxt döyüşə atılacaqları günü səbirsizliklə gözləyirdi. Oktyabrın 16-da onları Cəbrayıl rayonuna göndəriblər. Beləliklə, ürəyi Vətən sevgisi ilə döyünən Şahların döyüş yolu bu istiqamətdən başlayıb.

Vətən müharibəsi iştirakçısı, 12318 saylı hərbi hissədə "Yarasa" şərti adını daşıyan xüsusi təyinatlı dəstənin komandiri polkovnik-leytenant Anar Rizvanov bildirdi ki, Şahlar və digər şəhid hərbi qulluqçularımız döyüş meydanında şücaət göstəriblər, onlar haqqında saatlarla danışmaq olar.

Komandirin sözlərinə görə, Şahlar mərd döyüşçü olub, ruh yüksəkliyi ilə vuruşub, müharibənin bütün əziyyətlərinə dözüb, pulemyot silahı ilə müdafiədə və hücumda olduğu ərazilərdə düşmənə tutarlı atəş zərbəsi endirib. İşğaldan azad edilən Cəbrayıl şəhəri və ətraf kəndlərin müdafiəsi, hərbi obyektlərin düşmənin diversiya-kəşfiyyat qruplarından mühafizəsində Şahlar öz qətiyyəti, ayıq-sayıqlığı ilə fərqlənib.

Oktyabrın 29-da xüsusi təyinatlılarımız Füzuli rayonu istiqamətindəki mövqelərdə cəmləşdiriliblər. Oktyabrın 31-də isə buradan Xocavənd rayonunun Hadrut qəsəbəsinə gəliblər.

Polkovnik-leytenant A.Rizvanov məlumat verdi ki, xüsusi təyinatlılardan ibarət qruplar Hadrutdan Tuğ, Köhnə Tağlar kəndləri və Şuşa istiqamətində hərəkət ediblər. Bir neçə gün ərzində keçdikləri ərazilərdə təcavüzkarın müxtəlif silahlardan atəşinə məruz qalıblar. Noyabrın 2-də Şuşa yaxınlığındakı mühüm bir yüksəkliyin ətrafına çatıblar. Bu yüksəkliyin ələ keçirilməsi, Laçın dəhlizinin, İsa bulağına gedən yolun nəzarətə götürülməsi, Ermənistandan Şuşaya dəhliz vasitəsilə canlı qüvvə göndərilməsinin qarşısının alınması, bu istiqamətdə



düşmənin təchizatının pozulması, eləcə də digər döyüş tapşırıqlarının icrası Şahlar və neçə-neçə silahdaşının igidliyi, peşəkarlığı sayəsində mümkün olub. Daşaltı kəndi tərəfdə işğalçıların yolun üzərindəki postlarının darmadağın edilərək atəş nöqtələrinin susdurulmasında da Şahların cəsurluğunu dəstə komandiri xüsusi vurğuladı. O qeyd etdi ki, ermənilər bizim mövqe tutduğumuz mühüm yüksəkliyin əhəmiyyətini nəzərə alaraq, onu geri qaytarmaq üçün oranı artilleriya, tanklar, müxtəlif çaplı atıcı silahlardan şiddətli atəşə tuturdular. Noyabrın 4-də yerləşdikləri yüksəkliyin müdafiəsində dayanan Şahlar düşmən snayperinin gülləsindən şəhid olub.

12318 saylı hərbi hissədə xüsusi təyinatlı dəstənin xüsusi həmlə qrupunda atıcı-sanitar çavuş Bəxtiyar Qasımov da Vətən müharibəsi iştirakçısıdır. Şahlarla birgə xidmət və döyüş yolu keçdiklərini dedi. Yoldaşının vətənpərvər, hərbi anda sadiq, cəsarətli bir hərbi qulluqçu olduğunu nəzərə çatdırdı. Döyüşlər zamanı Şahlar pulemyot silahının sursat ehtiyatını özü daşıyırdı, kiminsə əziyyət çəkməsini istəmirdi. Pulemyotla düşmənin canlı itkisini artırmaqla yanaşı, bir neçə avtomobilini də sıradan çıxarmışdı. Xüsusi təyinatlı söylədi ki, Şahlar bir gün söhbət zamanı qeyri-adi hissiyyatından danışıb, bu müharibədə şəhid olacağını deyib. Şuşa uğrunda döyüşlərdə iştirak etsə də, şəhərin azad olunduğu günü görmək ona qismət olmadı, bunu çox arzulayırdı. Şəhidin nəşini təhlükəli ərazidən Bəxtiyarla əsgər Elmir Tahirzadə çıxarıblar. Döyüş zonasından şəhidin nəşi bir neçə gün sonra təxliyyə olunub.

Bəxtiyar Şahların öz xeyirxah əməlləri ilə də heç vaxt unudulmayacağını bildirdi. Belə ki, xidmətdə olarkən öz maaşından kimsəsiz və xəstə uşaqlara maddi yardımını əsirgəməyib.

Şəhid hərbi qulluqçumuz Ərəbqardaşbəyli kəndinin qəbiristanlığında dəfn olunub.

Azərbaycan Respublikası Prezidentinin imzaladığı 15.12.2020-ci il və 29.12.2020-ci il tarixli müvafiq sərəncamlarla baş çavuş Ş.Məmmədov ölümündən sonra "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə", həmçinin, müdafiə nazirinin 28.12.2020-ci il tarixli aidiyyəti əmrinə əsasən, III dərəcəli "Hərbi xidmətdə fərqlənməyə görə" medalları ilə təltif edilib.

Ərəbqardaşbəyli kəndində iş adamı Faiq Süleymanov tərəfindən Şahların və qonşu kəndlərin şəhidlərinin xatirəsinə abidə kompleksi ucaldılıb. Mərhum hərbi qulluqçumuz Ərəbqardaşbəylinin yeganə şəhididir.

Məmmədovlar ailəsinin öz təşəbbüsü ilə, yaşadıqları evin önündə şəhidin barelyefi düzəldilib, evin otaqlarından birində isə xatirə guşəsi yaradılıb. Bununla yanaşı, Şahların vaxtilə oxuduğu təhsil ocaqlarında da onun xatirə guşələri mövcuddur.

Şahlar ön cəbhədə olarkən evə zəng vursa da, ailəsinə döyüşlərdə iştirak etdiyini bildirməyib. Qələbə sevincinin ardınca aldığı qara xəbər ailəni dərindən sarsıdıb. Sonuncu dəfə atası ilə danışdıqda Şahlar ondan halallıq istəyib. "Hər bir valideynə Şahlar kimi qeyrətli oğul arzulayıram" – deyən Əzizə ananın onunla bağlı nə qədər arzuları vardı.

Aygül Cəfərzadə və Bədirə Rza şəhid haqqında şeirlər yazıblar. Məqaləni Aygül xanımın şeirindən bir bəndlə yekunlaşdırıram:

***İntiqam hissiylə coşurdu qəlbi,***
***Yolu qəhrəmanlıq salnaməsiydi.***
***Geri qaytarılan torpaqlarımız***
***Neçə Şahlarların qələbəsiydi.***

**Allah rəhmət eləsin!**

**Yalçın Abbasov**

*Qazilərimiz*

# "QAZANDIĞIMIZ ZƏFƏRİ MÜZƏFFƏR ALİ BAŞ KOMANDANIMIZA VƏ DƏMİR YUMRUQTƏK BİRLƏŞƏN XALQIMIZA BORCLUYUQ"

Vətən müharibəsində qəhrəmancasına döyüşərək yaralanmış hərbi qulluqçularımızın həyat və döyüş yolundan bəhs edən "Qazilərimiz" rubrikasının sizlərə təqdim etdiyimiz budəfəki qəhrəmanı gizir İsgəndərov Bəhruz Allahverdi oğludur.

Gizir Bəhruz İsgəndərov 1990-cı il iyulun 7-də Salyan şəhərində anadan olub. Təhsilini 9-cu sinfədək şəhid İlqar İbrahimov adına Salyan rayon Xalac kənd orta məktəbində alıb. 2005-2008-ci illərdə Şirvan Dövlət İqtisadiyyat və Humanitar Kollecində təhsilini davam etdirən Bəhruz buranı "Fiziki tərbiyə müəllimliyi" ixtisası üzrə bitirib. Kollecdə oxuduğu müddətdə idmanın boks növü ilə məşğul olduğunu qeyd edən silahdaşımız iştirak etdiyi yarışlarda qazandığı uğurlarına görə müxtəlif dərəcəli medallarla təltif edilib.

Müddətli həqiqi hərbi xidmətini 2008-ci ilin iyul ayından 2010-cu ilin yanvar ayınadək Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində keçib. 2013-cü ilin yanvar ayından Daxili Qoşunların 25031 saylı hərbi hissəsində müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi yenidən Vətənə olan borcunu şərəflə yerinə yetirməyə başlayan Bəhruz 2019-cu ilin sentyabr ayınadək qoşunların 12318, 25032, 16077 və 99713 saylı hərbi hissələrində müxtəlif vəzifələrdə xidmət edib. 2020-ci ilin fevral ayından 99713 saylı hərbi hissənin "Şahin" şərti adını daşıyan xüsusi təyinatlı dəstəsində xüsusi əməliyyat yarımqrupunun komandiri vəzifəsində xidmətini davam etdirən cəsur hərbi qulluqçumuz yüksək döyüş hazırlığına və nümunəvi xidmətinə görə dəfələrlə mükafatlandırılıb. Xüsusi təyinatlı əzmkarlığı ilə qazandığı zoğalı bereti isə Bəhruz bu gün də qürur hissi ilə daşıyır.

Gizir B.İsgəndərov, həmçinin, 2019-cu ilin sentyabr ayının 29-dan 2020-ci ilin fevral ayının 19-dək qardaş Türkiyə Respublikası Jandarm Baş Komandanlığının Jandarm Komando Məktəbləri və Təlim Mərkəzi Komandanlığında təşkil olunan "Gizir komando təməl kursu"nu müvəffəqiyyətlə bitirib və ona müvafiq sertifikat verilib.



İşğal altında olan torpaqlarımızı düşmən tapdağından azad etmək hər bir döyüşçü yoldaşı kimi onun da ən böyük arzusu olub. Məhz buna görə də Vətən müharibəsində fəal iştirak edən cəsur xüsusi təyinatlımız Kəlbəcər, Cəbrayıl, Füzuli rayonları, eləcə də Xocavənd rayonunun Hadrut qəsəbəsi və bir sıra yüksəkliklərin azad edilməsi uğrunda gedən döyüşlərdə cəsurcasına vuruşub: "44 günlük Vətən müharibəsində qazandığımız bu zəfəri Müzəffər Ali Baş Komandanımıza və dəmir yumruqtək birləşən xalqımıza borcluyuq. Cənab Prezidentin yürütdüyü uğurlu daxili və xarici siyasət, o cümlədən, ordu quruculuğuna göstərdiyi diqqət və qayğının nəticəsidir ki, bu gün Azərbaycan Ordusu dünyanın qabaqcıl orduları sırasındadır. Bu gün mən qalib dövlətin hərbi qulluqçusu olmağımla qürur duyuram və bu yolda bizə daim dəstəyi olan, bizi bir döyüşçü kimi yetişdirən komandirlərimizə borcluyuq.

Daxili Qoşunların 16077 saylı hərbi hissəsində xüsusi təyinatlı dəstənin tərkibində xidmətə başladığım ilk vaxtlarda mənim bir xüsusi təyinatlı kimi formalaşmağımda əməyi olan, eləcə də üç ilə yaxın bərabər xidmət etdiyim, dəstə komandirim olmuş və ölümündən sonra "Vətən Müharibəsi Qəhrəmanı" fəxri adına layiq görülmüş şəhidimiz mayor Şixamir Qaflanovun adını vurğulamaq istəyirəm. Onun qəhrəmanlığından hər kəs xəbərdardır. Onu da deyim ki, mayor Şixamir Qaflanov şəhid olana qədər dəstədən bir döyüşçü belə həlak olmamışdı. Bu da onun peşəkar və bacarıqlı zabit olduğunun nəticəsi idi.

Hal-hazırda xidmət etdiyim və tərkibində hərbi əməliyyatlara qatıldığım 99713 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsi bir çox döyüşdə fəal iştirak edib, düşmənə ölümcül zərbələr vurub. Belə ki, dəstə komandirimiz polkovnik Zəfər Yusibovun rəhbərliyi altında ilk döyüşümüz 2020-ci il sentyabrın 27-də Kəlbəcər istiqamətində olub. Sonra Cəbrayıl, Füzuli və Xocavənd rayonlarının bir sıra yaşayış məntəqələrinin və bu bölgədəki yüksəkliklərin azad olunması üzrə aparılan hərbi əməliyyatlarda yaxından iştirak etdik. Ən son tapşırığımız isə Şuşanın azad olunması idi. Çox təəssüflər olsun ki, Şuşa uğrunda gedən döyüşlərdə iştirak etmək mənə nəsib olmadı. 2020-ci il oktyabrın 21-də Xocavənd rayonunun Tuğ kəndi istiqamətində gedən qızğın döyüşlər zamanı düşmən artilleriyasının mövqelərimizi atəşə tutması nəticəsində qolumdan qəlpə yarası aldığım üçün döyüşü davam etdirə bilmədim. Oktyabrın 23-də isə təxliyyə olundum.

Qürur hissi ilə qeyd etmək istərdim ki, bizə rəhbərlik etmiş dəstə komandirinin bilik və bacarığı sayəsində şəxsi heyət Kəlbəcər istiqamətindən başlayaraq, Cəbrayıl, Füzuli, Xocavənd və Şuşa istiqamətlərində



iştirak etdiyi bütün döyüş əməliyyatlarından alnıaçıq çıxıb. Məhz bunun nəticəsidir ki, dəstə komandiri Müzəffər Ali Baş Komandanımız tərəfindən "Vətən Müharibəsi Qəhrəmanı" fəxri adına layiq görülüb. Bu, həm də, polkovnik Z.Yusibovun da çıxışlarında dəfələrlə qeyd etdiyi kimi, dəstənin bütün şəxsi heyətinin uğurudur".

Gizir B.İsgəndərov, həmçinin, "Şahin" şərti adlı xüsusi təyinatlı dəstənin döyüşlər zamanı şəhidlik zirvəsinə ucalmış 7 nəfər cəsur döyüşçüsünün adlarını qeyd edərək, onların əziz xatirəsinin xalqımızın qəlbində əbədi yaşayacağını bildirdi: "Qəhrəman silahdaşlarımızdan baş çavuşlar Məhəmməd Hüseynov, Səid Cəfərov, İsmayıl Qəsəbov, çavuşlar Rauf Süleymanov, Mirsəfa Mirəşrəfbəyli, Abas Şahbazov və Elşən Quluzadə içdikləri hərbi anda və xüsusi təyinatlı amalına sadiq qalaraq, son damla qanlarınadək vuruşaraq şəhidlik zirvəsinə ucaldılar. Bütün şəhidlərimizə Allahdan rəhmət, qazilərimizə isə şəfa diləyirik".

Azərbaycan Respublikası Prezidentinin 22 dekabr 2020-ci il tarixli, 29 dekabr 2020-ci il tarixli və 24 iyun 2021-ci il tarixli müvafiq sərəncamları, həmçinin, Azərbaycan Respublikası müdafiə nazirinin 24.12.2020-ci il tarixli əmri ilə gizir İsgəndərov Bəhruz Allahverdi oğlu "Cəbrayılın azad olunmasına görə", "Şuşanın azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" və "Şücaətə görə" medalları ilə təltif edilib.

99713 saylı hərbi hissədə xüsusi təyinatlı dəstənin komandiri, Vətən Müharibəsi Qəhrəmanı polkovnik Z.Yusibov şərəfli xidmətini bu gün də davam etdirən gizir B.İsgəndərovu vətənpərvər yarımqrup komandiri kimi xarakterizə edərək, qarşıya qoyulan tapşırıqların icrasına hər zaman məsuliyyətlə yanaşdığını və tabeliyindəki şəxsi heyətə nümunə olduğunu dedi: "Dəstəmizin Vətən müharibəsi zamanı yaralanan cəsur xüsusi təyinatlılarından biri də gizir Bəhruz İsgəndərovdur. Bəhruz vətənpərvər döyüşçü, eyni zamanda, tələbkar və qayğıkeş komandir kimi tabeliyindəki şəxsi heyətin rəğbətini qazanıb. Onun komandiri olduğu yarımqrup dəfələrlə fərqlənib və uğurlu nəticələr əldə edib. Bu baxımdan kiçik komandir kimi fəaliyyəti hər zaman müsbət qiymətləndirilib. Cəsur silahdaşımıza yalnız uğurlar diləyirik".

Sonda onu da qeyd edək ki, ailə həyatı qurmuş Bəhruzun Nuray və Hüseyn adında iki övladı var. İnanırıq ki, vətənpərvərlik ruhunda böyüyən bu uşaqlar tarixi qələbəmizlə başa çatan Vətən müharibəsində fəal iştirak etmiş atalarının timsalında bütün qəhrəman döyüşçülərimizlə hər zaman qürur duyacaqlar.

**mayor Anar Əhmədov**

# ŞƏXSİ HEYƏT QARŞIYA QOYULAN TAPŞIRIQLARI UĞURLA İCRA EDİR

Bu gün ölkəmizdə ictimai qaydanın qorunub saxlanılması və ictimai təhlükəsizliyin təmin edilməsində Daxili İşlər Nazirliyinin Daxili Qoşunları xüsusi rolu var. Qoşunların qarşısına qoyulmuş tapşırıqların istər paytaxt Bakıda, istərsə də regionlarda uğurla həyata keçirilməsi bunu deməyə əsas verir.

Məqsədli qrupun tərkibində xidməti ezamiyyət zamanı 17071 saylı hərbi hissənin ayrı yerləşən patrul taborunun xidməti fəaliyyəti ilə tanış oldum. Bu tabor yüksək döyüş hazırlığı, o cümlədən, nümunəvi hərbi intizam nümayiş etdirərək, üzərinə düşən vəzifələri layiqincə yerinə yetirir. Bütün bunlar şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlığı barədə müsbət təsəvvür yaradır, eyni zamanda, rəhbər sənədlərin tələblərinin mükəmməl öyrənilməsi, habelə düzgün icrasından xəbər verir.

Ayrı yerləşən patrul taborunun komandiri polkovnik-leytenant Bəxtiyar Behbudov əldə olunan nailiyyətin, ilk növbədə, hərbi qulluqçuların öz vəzifə borclarına məsuliyyətlə yanaşmalarından irəli gəldiyini bildirdi. Qeyd etdi ki, hər kəs üzərinə düşən məsuliyyəti doğru-düzgün anlayanda yüksək nizam-intizam formalaşır, bu da artıq hissənin döyüş hazırlığına birbaşa təsir göstərir. O, bu baxımdan keçirilən nəzəri və praktiki məşğələlərin əhəmiyyətini də vurğuladı. Polkovnik-leytenant B.Behbudov mənəvi-psixoloji durumu yüksək olan hərbi qulluqçuların məşğələlərdə daha fəal iştirak



etdiklərini, eyni zamanda, bilik və bacarıqların artırılması istiqamətində səylə çalışdıqlarını diqqətə çatdırdı.

Döyüş hazırlığının yüksək səviyyədə qorunub saxlanılması istiqamətində görülən işlər barədə tabor komandirinin 1-ci müavini-qərargah rəisi mayor Namir Qurbanov məlumat verdi. Bildirdi ki, hərbi qulluqçuların fiziki məşqləri daima diqqət mərkəzində saxlanılır. Bütün idman tədbirləri vaxtında, eyni zamanda, müvafiq təlimata uyğun keçirilir, bu da müsbət nəticələrin əldə olunmasına imkan verir.

Qərargah rəisi bununla yanaşı, şəxsi heyətin atəş hazırlığının da mühüm əhəmiyyət kəsb etdiyini söylədi. O, şəxsi heyətlə keçirilən praktiki təlimləri önə çəkərək qeyd etdi ki, məşğələlər zamanı silahların taktiki-texniki xüsusiyyətlərinin mükəmməl mənimsənilməsi, onların düzgün istifadəsi, təhlükəsizlik qaydalarına ciddi riayət olunması, eləcə də normativlərə uyğun silahların sökülüb-yığılmasına əsas diqqət yetirilir. İl ərzində döyüş təliminin keyfiyyətinin artırılmasına nail olunduğunu deyən mayor N.Qurbanov görülən işlərdə xüsusi təyinatlı qrupun komandirinin vəzifələrini müvəqqəti icra edən baş çavuş Xəlil İsayev, xüsusi vasitələrin tətbiqi bölməsinin komandiri baş leytenant Məhəmməd Hüseynov, təminat bölüyünün komandiri kapitan Rəşad Zahidov və komendant taqımının komandiri baş leytenant Səbuhi Əhmədzadənin xidmətlərini müsbət qiymətləndirdi. Onun sözlərinə görə, bölmə komandirləri məşğələlərin tam və keyfiyyətlə keçirilməsi məqsədilə tədris prosesini daima ciddi nəzarətdə saxlayırlar.

Taborun komandanlığı tərəfindən diqqət mərkəzində saxlanılan istiqamətlərdən biri də bölmələrin təyinatları üzrə vəzifələrini yerinə yetirmələri, o cümlədən, şəxsi heyətin gündəlik xidməti-döyüş fəaliyyətidir.

Ümumilikdə şəxsi heyət xidmət zamanı hərbçilərə xas olan bütün xüsusiyyətləri özündə cəmləşdirir, qarşıya qoyulan tapşırıqların icrasında zamanı əzmkarlıq nümayiş etdirir. Funksional vəzifələrini layiqincə yerinə yetirən hərbi qulluqçulardan leytenant Kamran Rəhimov, gizir Coşqun Əhmədov, çavuş Elçin Həsənovun adlarını çəkə bilərik.

**baş leytenant Nigar Ağayeva**

# FUNKSİONAL DİAQNOSTİKA ŞÖBƏSİ İŞİNİN ÖHDƏSİNDƏN LAYİQİNCƏ GƏLİR

Funksional diaqnostika şöbəsi Daxili Qoşunların Hərbi Qospitalının ən böyük və təyinatı baxımından olduqca əhəmiyyətli şöbəsidir. Bu şöbə təcrübəli hərbi həkim tibb xidməti polkovnik-leytenantı Vəsilə Əsgərovanın rəhbərliyi altında uğurla fəaliyyətini bugün də davam etdirir. O, 2009-cu ildən Daxili Qoşunların Hərbi Qospitalında ləyaqətlə xidmət edir. Həkim 2013-cü ildə Türkiyədə Gülhanə Hərbi Tibb Akademiyasında ixtisasartırma kursu keçib. 2016-cı ildən şöbənin







rəisidir. Vəzifə borclarına vicdanlı münasibəti, təşkilatçılıq qabiliyyəti, işgüzarlığına görə dəfələrlə müxtəlif mükafatlara layiq görülüb və müsbət keyfiyyətləri nəzərə alınaraq ona bu etimad göstərilib.





Şöbə rəisi tabeliyindəki həkim, laborant, tibb bacıları, işçilərin iş və fərdi keyfiyyətlərinə yaxşı bələddir. Həkimlərlə öz təcrübəsini daim bölüşən şöbə rəisi peşəsini qəlbən sevdiyini, hərbi həkim olmasından qürur duyduğunu vurğuladı. Onunla söhbət zamanı bütün növ laborator və instrumental müayinələrin məhz bu şöbədə aparıldığını nəzərimizə çatdırdı: "Laboratoriyada qanın və sidiyin ümumi, seroloji, biokimyəvi analizi, elektrokardioqramma, exokardioqramma, revmatik sınaqlar, infeksiyalar, hormonların müayinəsi, rentgen (qrafioskopiya), endoskopiya, qarın boşluğu orqanlarının ultrasəs müayinəsi, aşağı və yuxarı ətrafların, qalxanvari vəzin və müxtəlif orqanların dopler müayinəsi aparılır. Qospitala gələn bütün xəstələr, ilk olaraq, Qəbul şöbəsində çeşidlənir və onlara verilən göndərişə əsasən Funksional diaqnostika şöbəsinin mütəxəssisləri tərəfindən müayinələrə cəlb olunurlar. Şöbəyə daxil olan hər bir hərbi qulluqçu qayğı ilə əhatə olunur".

Xidmətini "Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının tibbi təminatı qaydaları haqqında Təlimat"ın tələbləri əsasında quran tibb xidməti polkovnik-leytenantı V.Əsgərova şöbənin fəaliyyətindən danışarkən tabeliyindəki həkimlərin peşəkarlığını xüsusi olaraq vurğuladı: "Əsas etibarilə gənclərdən ibarət olan kollektivdə nizam-intizam, həkimlərin və orta tibbi heyətin funksional vəzifələrinin icrasına məsuliyyətlə yanaşması müsbət nəticələrə səbəb olur. Pandemiya zamanı, xüsusilə də Vətən müharibəsi dövründə burada çalışan tibb işçilərinin əməyi danılmazdır. Laborantlardan gizirlər Rəsmiyyə Nuriyeva, Asimə Ağayeva, kiçik gizirlər Könül Hüseynova, Yeganə Bağırova, baş çavuşlar Azad Ələsgərov, Vüsalə İmamverdiyeva, rentgen-texnik gizirlər Lalə Həsənova, Hicran Əhmədova və tibb bacısı baş çavuş Qızılgül Ələkbərova funksional vəzifələrinin icrasında məsuliyyət və əzmkarlıq nümayiş etdirirlər. Onlar növbətçi qrafikinə əsasən fəaliyyət göstərir, günün istənilən vaxtında burada xəstələr üçün lazımi şərait yaradılır".

Mətbuat xidməti olaraq biz də, öz növbəmizdə, Hərbi Qospitalda xidmət edən bütün tibb personalına fədakar xidmətində uğurlar arzulayırıq.

**gizir Ariz Aslanov**

NÜMUNƏVİ XİDMƏT

## VƏZİFƏLƏRİNİN İCRASINA LƏYAQƏTLƏ YANAŞAN QADIN HƏRBİ QULLUQÇUMUZ

Baş çavuş Gülşən Sultanova 64412 saylı hərbi hissənin nümunəvi xidmətilə fərqlənən qadın hərbi qulluqçularındandır. Artıq 10 ildir ki, həqiqi hərbi xidmətdədir. Hərbi hissə komandanlığı tərəfindən müsbət xarakterizə olunur.

O, 1991-ci il sentyabrın 22-də Bakı şəhərində doğulub. Bakının Nizami rayonunda yerləşən 70 saylı pilot-lisey məktəbini 2009-cu ildə bitirib. Elə həmin ildə peşə liseyinə qəbul olunub. Təhsilini bitirdikdən sonra 2011-ci ildə Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarında həqiqi hərbi xidmətə başlayıb.

Hazırda 64412 saylı hərbi hissənin mərkəzləşdirilmiş silah anbarlarında məsul icraçıdır. O, silah və silah əmlaklarının hesabatının aparılmasına, alınmış maddi-texniki vasitələrin vaxtında qeydiyyata alınmasına, sənədlərin və hesabatların tərtibinə, qorunub saxlanılmasına, kargüzarlığın təyin olunmuş qaydalara əsasən təşkil edilməsinə cavabdehlik daşıyır.

Funksional vəzifələrinin icrasına ləyaqətlə yanaşan qadın hərbi qulluqçu peşəkarlıq vərdişlərinin təkmilləşdirilməsi yönündə daim öz üzərində çalışır, verilən



tapşırıqları yüksək səviyyədə yerinə yetirmək üçün əlindən gələni əsirgəmir.

Hərbi qulluqçumuza bundan sonrakı fəaliyyətində yalnız uğurlar arzulayırıq.

**baş leytenant Nigar Ağayeva**

## BACARIQLI VƏ MƏSULİYYƏTLİ SÜRÜCÜ

Daxili Qoşunların 25033 saylı hərbi hissəsinin nümunəvi, üzərinə düşən vəzifələri məsuliyyətlə yerinə yetirən müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularından biri də əsgər Emil Məmmədəlizadədir.

O, 1994-cü il may ayının 25-də Şəki rayonunun Baltalı kəndində doğulub. Orta təhsilini Baltalı kənd tam orta məktəbində alıb. 2012-2014-cü illərdə Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət keçib. Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi 2015-ci ildən xidmətini Daxili Qoşunların 25033 saylı hərbi hissəsində davam etdirir. Hazırda hərbi hissədə xüsusi təyinatlı dəstənin atəş təminatı qrupunda iriçaplı pulemyot yarımqrupunda sürücüdür.

Hərbi qulluqçumuz işinin məsuliyyətini dərindən dərk edir, xidməti vəzifələrini düzgün yerinə yetirir. İntizamlı və məsuliyyətli sürücüdür. Təhlükəsizlik qaydalarını bilir və şəxsi heyətin daşınması zamanı onlara ciddi əməl edir. Parkdan çıxmazdan əvvəl avtomobilin sazlığını yoxlayır.

Vətən müharibəsi iştirakçısı olan əsgər E.Məmmədəlizadə Füzuli rayonunun düşmən tapdağından azad olunması uğrunda aparılan döyüş əməliyyatlarında iştirak edib.

Əsgər E.Məmmədəlizadə söylədi ki, sürücülərin nəqliyyat vasitələrini müxtəlif



hava və yol şəraitlərində idarəetmə bacarığı olmalıdır. Onlar yolda yaranan vəziyyəti ani olaraq qiymətləndirməyi bacarmalı, istənilən şəraitdə təhlükəsizliyi tam təmin edən qərar qəbul etməli və onu həyata keçirməlidirlər. Dağlarda, sutkanın gecə vaxtı, qarda, karvanda idarəetmə qaydalarını bilməlidirlər.

Funksional vəzifələrinə məsuliyyətlə yanaşan hərbi qulluqçu verilən tapşırıqları vaxtında və əzmlə icra edir.

**kapitan Xədicə Hacızadə**

## HƏRBİ XƏBƏRLƏR -YENİLİKLƏR-

### ABŞ ordusu üçün yüngül tank əleyhinə qumbaraatanların istehsalına başlanılıb

ABŞ Müdafiə Nazirliyi ölkənin silahlı qüvvələrinə M72 adlı yüngül tank əleyhinə qumbaraatanları istehsal etməsi üçün "Nammo Defense Systems" şirkəti ilə müqavilə imzalayıb. Ordu.az xəbər verir ki, bu barədə Pentaqonun mətbuat xidməti məlumat yayıb.

Müqavilənin ümumi dəyəri yarım milyon dollara yaxındır.



M72 Norveçin "Nammo" şirkəti tərəfindən dizayn və istehsal edilmiş, çiyinə qoyularaq atılan portativ idarə olunmayan tank əleyhinə silahdır.

## Allah rəhmət eləsin

Daxili Qoşunların komandanlığı mayor Ramil Mürsəliyevə **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

25033 saylı hərbi hissənin komandanlığı kapitan Rafayıl Mürsəliyevə **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

16076 saylı hərbi hissənin komandanlığı gizir Bahadur Abbaszadəyə **bacısının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

16076 saylı hərbi hissənin komandanlığı baş çavuş Vüsal Məmmədova **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

*TƏSİSÇİ:*
Azərbaycan Respublikası DİN
Daxili Qoşunların Baş İdarəsi.
Redaktor: Anar Əhmədov

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, Q. Musabəyov küç. 4,
Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonları: 560-22-63

Qəzet ayda 2 dəfə nəşr olunur. "Əsgər" qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000